**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 36/09**

**Bakı şəhəri** **02 oktyabr 2024-cü il**

# Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 153 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 425s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 dekabr tarixli 20/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Birinci instansiya məhkəmələrində baxılmış inzibati xətalar haqqında işlər barədə" 3 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 9-cu sətrində (hər iki halda) "Siyasi, sosial və əmək hüquqları" sözləri "İnsan və vətəndaşın hüquq və azadlıqları" sözləri ilə əvəz edilsin, 34-cü sətrindən sonra (hər iki halda) aşağıdakı məzmunda 34-1-ci və 34-2-ci sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 34-1 | On altı yaşına çatmayan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olma | 189-1 |
| 34-2 | Bu Məcəllənin 189-3.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsi | 189-3.2 |

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 dekabr tarixli 21/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Birinci instansiya məhkəmələrində inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətlərə və ya protestlərə baxılmanın nəticəsi barədə"

3-1 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 2-ci sətrində (hər iki halda) "Siyasi, sosial və əmək hüquqları" sözləri "İnsan və vətəndaşın hüquq və azadlıqları" sözləri ilə əvəz edilsin.

3. "Cinayətin növləri üzrə məhkumların sayı haqqında" 10-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il 11 oktyabr tarixli 23/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin qərarla təsdiq edilmiş "Cinayətin növləri üzrə məhkumların sayı haqqında" 10-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 92-ci sətrində "176-1" rəqəmləri "176-2" rəqəmləri ilə, 99-cu sətrində "Qadını nikaha" sözləri "Nikaha və ya erkən evliliyə" sözləri ilə əvəz edilsin və həmin sətirdən sonra aşağıdakı məzmunda 99-1-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 99-1 | On altı yaşına çatmayan şəxsin erkən evliliyinin təşkili | 176-2 |

3.2. həmin qərarla təsdiq edilmiş "Cinayətin növləri üzrə məhkumların sayı haqqında" 10-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in 2-ci hissəsinin səkkizinci abzasında "93-99-cu" sözləri "93-99-1-ci" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 24/09 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstintaq işi haqqında" 1-E №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının "1-ci cədvəl. Cinayətin növləri üzrə işlər (təkrarsız)" cədvəlinin 12-ci sətrində "Qadını nikaha" sözləri "Nikaha və ya erkən evliliyə" sözləri ilə əvəz edilsin.

5. Bu Qərar 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

6. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

7. Aparatın Sosial statistika şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

8. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**